# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 07 (244) iyul 2024

881 ÇAĞRI MƏRKƏZİ


## 2-Cİ QLOBAL MEDİA FORUMU

### *Prezident İlham Əliyev Forumda iştirak edib*




**İyulun 20-22-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu keçirilib.**

50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimdə iştirak edib. "Euronews" televiziyasının aparıcısı və prodüseri xanım Rebekka Maklaflin-İsthamın moderatorluğu ilə keçən tədbirdə dövlətimizin başçısı çoxsaylı sualları cavablandırıb.

Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunub.

Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi apardılar.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat verilib.



## "Əkinçi"dən başlayan yol: Azərbaycan mediası 149




**2024-cü il iyulun 22-də Azərbaycan milli mətbuatının yaranmasından 149 il ötür. "Əkinçi" qəzetinin ilk nömrəsinin çap olunduğu gün - iyulun 22-si ölkəmizdə Milli Mətbuat Günü kimi qeyd edilir.**

XIX əsrin sonlarına yaxın bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və digər görkəmli ziyalıların böyük xidmətləri olub.

1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək "Əkinçi"nin cəmi 56 sayının işıq üzü görməsinə baxmayaraq, o, Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rol oynayıb. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox populyarlaşmışdı. Təəssüf ki, bu fəaliyyət uzun sürmədi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə nüfuz etməsindən ehtiyatlanaraq maneələr yaratdı və sonda onun nəşri dayandırıldı.

Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərə bildilər. XIX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr verdilər. "Molla Nəsrəddin", "Ziya", "Kaspi", "Kəşkül", "Həyat", "Füyuzat", "Açıq söz" və digər qəzet və jurnallar bu qəbildəndir.

(ardı 2-ci səhifədə)


**Beynəlxalq əməkdaşlığa dair tədbirlər** — *səhifə 2-3-də*

**Cəza-icra sahəsində fəaliyyət** — *səhifə 4-6-da*

**Ədliyyə Akademiyası xəbərləri** — *səhifə 6-da*

**Reyestr məlumatları** — *səhifə 7-8-də*

# "Əkinçi"dən başlayan yol: Azərbaycan mediası 149

(ardı 1-ci səhifədə)




Azərbaycanın milli mətbuatı müxtəlif dövrləri əhatə edən böyük bir keçib. Müasir dövrdə mediamızın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli Lider hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirir, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirirdi. 1998-ci ildə senzuranın ləğv edilməsi mətbuatın qarşısında yaşıl işıq yandırdı.

Ulu Öndər mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub, çoxsaylı qəzet və jurnallar nəşr olunur, televiziyalar fəaliyyət göstərir, onlayn media şəbəkəsi ildən-ilə genişlənir. Müasir texnologiyalarının tətbiqi sayəsində milli mətbuatımız qlobal informasiya məkanına inamla daxil olur.

Vətən müharibəsi zamanı Azərbaycan mətbuatı kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynayıb. Jurnalistlərimiz Qarabağla bağlı tarixi həqiqətləri, o cümlədən işğal dövründə ermənilərin torpaqlarımızda törətdikləri vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini bu gün də yorulmadan davam etdirirlər.

Hər zaman Azərbaycan həqiqətlərinin təbliği missiyasını böyük peşəkarlıqla həyata keçirən mətbuatımızın, postmüharibə dövründə də bu işi əzmlə davam etdirməkdədir. Azərbaycan mediası dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sülh təşəbbüslərinin, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən möhtəşəm bərpa-quruculuq işləri barədə xəbərlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır, Böyük Qayıdış prosesini geniş işıqlandırır.

Hazırda media məkanında sürətli qloballaşma prosesi gedir. Bu da, öz növbəsində, mətbuatla bağlı qanunvericiliyin təkmilləşdirilməsini gündəmə gətirir. 2021-ci ildə Azərbaycanda "Media haqqında" Qanunun qəbul edilməsi ilə bu sahədə fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsasları, həmçinin informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydaları müəyyən olunub.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması media məkanında islahatların dərinləşdirilməsinə imkan yaratmaqla, milli mətbuatımıza yeni ruh və nəfəs gətirib.

Artıq iki ildir ki, Milli Mətbuat Günü ərəfəsində Şuşa Qlobal Media Forumu təşkil edilir. Forum dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır. Şuşa Qlobal Media Forumuna dünya media orqanlarının artan marağı dövlətimizin media siyasəti çərçivəsində həyata keçirdiyi davamlı tədbirlərin nəticəsidir.

Builki Milli Mətbuat Gününü ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş bütöv Azərbaycanda qeyd olunur. Azərbaycan mediası Şuşadan, Xankəndidən, Xocalıdan, Füzulidən, Zəngilanda, Laçından və işğaldan azad edilmiş digər ərazilərimizdən xəbərlər, reportajlar hazırlayır, Qarabağın bərpasına informasiya dəstəyi göstərir. Dövlətçilik maraqlarını daim uca tutan jurnalist kollektivləri insanlarda yüksək milli şüur formalaşdırılması, cəmiyyətin ali məqsədlər uğrunda səfərbər edilməsi işinə dəyərli töhfələr verirlər.

**AZƏRTAC**

# NAZİR FƏRİD ƏHMƏDOV QUSAR ŞƏHƏRİNDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

**Ədliyyə naziri Fərid Əhmədov 22 iyul tarixində Qusar şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**



Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Qusar, Quba, Xaçmaz, Şabran və Siyəzən rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Səfər çərçivəsində nazir, həmçinin Qusar rayon icra və probasiya, eləcə də qeydiyyat şöbələrinə və Qusar Rayon Məhkəməsinə baş çəkib, infrastruktur və iş şəraiti ilə tanış olub.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilir.



*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*

# ƏDLİYYƏ NAZİRİ İRAQIN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB



**Ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan İraq Respublikası Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları salamlayan nazir ölkələr arasında həm ikitərəfli, həm də beynəlxalq müstəvidə əməkdaşlığın inkişaf etdirildiyini vurğulayıb. Fərid Əhmədov ölkəmizdə elektron məhkəmə və elektron icra sisteminin tətbiq edilməsi, hakimlərin hazırlığı və ədliyyə sahəsində görülən digər işlər barədə məlumat verib. Nazir qeyd edib ki, iki ölkə arasında hüquqi sahədə əlaqələrin inkişafı üçün geniş imkanlar var.

İraq nümayəndə heyətinin rəhbəri Faiq Zidan səmimi qəbula görə öz minnətdarlığını ifadə edib. Bu səfərin ölkələr arasında hüquqi sahədə həyata keçirilən ilk səfər olduğunu vurğulayan qonaq məhkəmə və ədliyyə sahəsində əməkdaşlığın qurulmasında, eləcə də ölkəmizin təcrübəsinin öyrənilməsində qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Həmçinin, görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Beynəlxalq əməkdaşlığa dair tədbirlər*

# Ölkəmizdə səfərdə olan Qırğızıstan nümayəndə heyəti ilə görüş keçirilib

**Qırğızıstan Respublikasının məhkəmə-hüquq sisteminin rəqəmsallaşdırılmasının dəstəklənməsi istiqamətində Dünya Bankı tərəfindən həyata keçirilən "Məhkəmə-hüquq sisteminin funksional təhlili" layihəsi çərçivəsində qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə ölkəmizdə səfərdə olan Qırğızıstan nümayəndə heyəti ilə Ədliyyə Nazirliyində görüş keçirilib.**





Qonaqları salamlayan Ədliyyə nazirinin müavini Eldar Nuriyev iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin və ədliyyə sahəsində sıx əməkdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıb.

Daha sonra nümayəndə heyətinə ölkəmizdə ədliyyə sahəsində rəqəmsal transformasiya, elektron xidmətlər, elektron məhkəmə və elektron notariat haqqında təqdimatlar edilib. Nümayəndə heyətinin üzvləri ədliyyə sahəsində rəqəmsallaşma üzrə Azərbaycanın təcrübəsinin onlar üçün faydalı olacağını qeyd edib.

Sonda nümayəndə heyətinin sualları cavablandırılıb, maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Qulluğa qəbul*

# Söhbət mərhələsində uğur qazanan namizədlərlə icbari təlimlərə start verilib





**Ədliyyə Nazirliyinin kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş imtahanlardan uğur qazanaraq icbari təlimdə iştirak edəcək namizədlərlə Ədliyyə Akademiyasında görüş keçirilib.**

Tədbirdə iştirak edən Ədliyyə nazirinin müavini Azər Cəfərov açılış nitqi ilə çıxış edərək, imtahanlarda uğur qazanan namizədləri təbrik edib. Nazir müavini qeyd edib ki, Nazirliyin kadr korpusunun hazırlıqlı, müasir düşüncəli və dünyagörüşlü gənclərlə komplektləşdirilməsi məqsədilə Nazirlik tərəfindən mütəmadi müsabiqələr keçirilir, onların qulluq keçmələrinə və hərtərəfli inkişafına xüsusi diqqət yetirilir.

Daha sonra Ədliyyə Akademiyasının nümayəndəsi tərəfindən icbari təlim prosesi ilə əlaqədar namizədlərə ətraflı məlumat təqdim edilib, onların sualları cavablandırılıb.



Nazirliyin Müsabiqə Komissiyası tərəfindən 23-cüsü yekunlaşan müsabiqənin söhbət mərhələsində 55 namizəd iştirak edib və onlardan 20-si kişi, 19-u qadın olmaqla ümumilikdə 39 nəfər uğur qazanaraq icbari təlimlərə cəlb edilib.

Təxminən bir ay yarım davam edəcək icbari təlim zamanı namizədlər həm nəzəri biliklərə yiyələnəcək, həm də təcrübə və tanışlıq tədbirləri təşkil ediləcək. Yeni və təkmilləşdirilmiş formatda tərtib edilmiş təlim proqramı ilə namizədlər daha çox praktiki bacarıqlar əldə edərək, icra, probasiya və qeydiyyat üzrə tabe və yerli ədliyyə qurumlarının fəaliyyəti, eləcə də məhkəmələrdə icraat qaydası ilə yaxından tanış olacaqlar.

İcbari təlimin yekunları üzrə imtahandan uğurla keçən hüquqşünaslar peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə alaraq ədliyyə orqanlarına qulluğa qəbul olunacaqlar.

## Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş söhbət mərhələsinin nəticələri açıqlanıb

**Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyası bildirir ki, qulluğa qəbulla bağlı müsabiqənin test imtahanından uğur qazanmış namizədlərlə fərdi qaydada keçirilmiş söhbət mərhələsi yekunlaşıb.**

Bu mərhələdə iştirak etmiş 55 namizəddən zəruri keçid balı toplamış 39 nəfərin Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunmaları barədə qərar qəbul edilib.

İyul ayının 29-dan etibarən başlayan icbari təlimin yekunları üzrə imtahandan uğurla keçən hüquqşünaslar peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə alaraq ədliyyə orqanlarına qulluğa qəbul olunacaqlar.

*Qulluğa qəbul*

# Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə qulluğa qəbulla bağlı müsabiqə elan edilir

**Penitensiar xidmətin Müsabiqə Komissiyası bildirir ki, xidmətdə kiçik və orta rəis heyətinə qulluğa qəbulla bağlı 15-25 iyul 2024-cü il tarixlərində sənəd qəbulu həyata keçirilir.**

Vakant vəzifələr müxtəlif penitensiar müəssisələrdə energetika mühəndisliyi, elektrik və elektronika mühəndisliyi ixtisasları üzrə ali təhsil tələb edən vəzifələrdir. Həmçinin, Lənkəran penitensiar müəssisəsində mövcud olan vakant kiçik rəis heyəti vəzifələri üçün ən azı tam orta təhsil, orta rəis heyəti vəzifələri üçün isə hüquqşünaslıq, psixologiya, maliyyə-iqtisadiyyat, informasiya texnologiyaları, yanğından mühafizə ixtisasları üzrə ali təhsil tələb edilir.

Ədliyyə orqanlarında qulluqkeçmə ilə bağlı qanunvericiliyin tələblərinə, eləcə də yuxarıda qeyd olunan təhsil tələblərinə cavab verən Azərbaycan Respublikası vətəndaşları müsabiqədə iştirak edə bilər.



Müsabiqədə iştirak etmək istəyən şəxslər ərizə nümunəsi ilə Penitensiar xidmətin internet səhifəsinin (http://penitensiar.justice.gov.az) "Xidmətə qəbul" bölməsindən tanış ola bilərlər.

Vətəndaşlar ərizələri xidmətin elektron poçtu (info@penitensiar.justice.gov.az), Azərpoçt və ya xidmətin Bakı şəhəri, Nizami küçəsi 114 ünvanında yerləşən inzibati binasındakı poçt qutusu vasitəsilə təqdim edə bilər.

Müsabiqənin keçirilməsi ilə bağlı (012) 498-71-06, (012) 493-44-89 nömrəli telefonlar vasitəsi ilə əlavə məlumat almaq mümkündür.

*Cəza-icra sahəsində fəaliyyət*

# Penitensiar xidmətdə 6 ayın yekunlarına dair əməliyyat müşavirəsi

**İyul ayının 12-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətində 2024-cü ilin 6 ayı ərzində xidmətin fəaliyyətinin yekunlarına və növbədənkənar parlament seçkilərinə hazırlığa dair əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov bildirib ki, 2024-cü ilin birinci yarımili ərzində müəssisələrdə infrastrukturun yenilənməsi, fəaliyyətin təkmilləşdirilməsi, məhkum və həbs edilmiş şəxslərin saxlanma şəraitinin yaxşılaşdırılması, peşəkar kadr korpusunun formalaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, şəffaflığın artırılması və nizam-intizamın gücləndirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilib.

Xidmət rəisi qeyd edib ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində Penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir. Ötən dövr ərzində Ədliyyə naziri Fərid Əhmədov Penitensiar xidmətin Baş idarəsinə və penitensiar müəssisələrə baş çəkərək, fəaliyyətin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, innovativ texnologiyaların tətbiqi ilə bağlı tapşırıq və göstərişlərini verib.






Müşavirədə vurğulanıb ki, qarşıda duran ən mühüm vəzifələrdən biri də növbədənkənar parlament seçkilərində penitensiar müəssisələrdə cəza çəkən məhkumların səsvermə hüququnun tam təmin edilməsidir.

Daha sonra Penitensiar xidmətin rəis müavini Oqtay Məmmədov cari ilin ilk 6 ayı ərzində fəaliyyətin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, Prezident İlham Əliyev yanvarın 16-da Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksdə yaradılan şəraitlə tanış olub. Həmçinin, "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 may 2024-cü il tarixli Sərəncamının icrası tam təmin edilib. Məruzədə vurğulanıb ki, qarşıda duran vəzifələr yerinə yetirilib, cəzaçəkmə müəssisələrində saxlanılan şəxslər üzərində nəzarətin gücləndirilməsi və profilaktik işin daha səmərəli təşkili nəticəsində cinayətlərin, rejim pozuntularının sayı azalıb, narkotik və qadağan olunmuş əşyaların qanunsuz dövriyyəsi ilə mübarizədə müsbət nəticələrə nail olunub.

Müşavirədə tabe qurumların rəhbərlərinin çıxışları dinlənilib.

Əməliyyat müşavirəsinə yekun vuran nazir müavini Xidmətin təşkili üçün zəruri tədbirlərin həyata keçirilməsinə, nöqsan və çatızmazlıqların aradan qaldırılmasına dair mühüm tapşırıqlarını verib.

*Cəza-icra sahəsində fəaliyyət*

# Probasiya sahəsində Türkiyə ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib

**Ədliyyə Nazirliyinin Probasiya xidmətinin və Türkiyə Respublikası Ədliyyə Nazirliyinin Cəza və Həbs Evləri Baş İdarəsinin müvafiq probasiya qurumunun birgə təşkilatçılığı ilə onlayn görüş keçirilib.**




Cəza və Həbs Evləri Baş İdarəsinin rəisi Enis Yavuz Yıldırım açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını salamlayıb, iki ölkə arasında ədliyyə, xüsusilə də cəzaların icrası və probasiya sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımlardan məmnunluğunu ifadə edib.

Açılışda çıxış edən Ədliyyə nazirinin müavini Abiddin Hüseynov qardaş ölkələr arasında bütün sahələrdə əməkdaşlığın möhkəmləndiyini vurğulayıb. Nazir müavini bildirib ki, probasiya sahəsində əməkdaşlığa dair keçirilən görüş cari ilin may ayında Türkiyə və Azərbaycan ədliyyə nazirləri arasında imzalanmış Birgə Bəyanatın icrası istiqamətində atılan mühüm addımlardan biridir və bu görüş gələcəkdə sahə üzrə əməkdaşlığın gücləndirilməsində böyük rol oynayacaq.

Açılışdan sonra Türkiyədə probasiya sisteminin tarixi, Cəza və Həbs Evləri Baş İdarəsinin fəaliyyəti, probasiya sahəsində cəzaların icrası siyasəti, elektron izləmə sistemi, narkotik vasitələrdən asılı olan şəxslərin reabilitasiyası və sosial xidmətlər barədə təqdimat edilib.

Eyni zamanda, Azərbaycanda probasiya sisteminin inkişafı üzrə görülən işlər, bu sahədə sosial reabilitasiya və müasir elektron nəzarət vasitələrinin tətbiqi barədə məlumat verilib.

Tərəflər arasında probasiyanın müxtəlif sahələri üzrə müzakirələr aparılıb, əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi istiqamətində konkret tədbirlərin müəyyən edilməsi barədə razılıq əldə edilib.

Qeyd edək ki, görüş Ədliyyə Nazirliyinin müxtəlif struktur qurumlarının, eləcə də Bakı, Gəncə və Naxçıvan probasiya qurumlarının və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin nümayəndələrinin iştirakı ilə keçirilib.

# "Cinayətkarlığın qarşısının alınmasında kompleks yanaşma" adlı beynəlxalq konfrans






**Azərbaycan nümayəndə heyəti cari ilin 25-26 iyul tarixlərində Gürcüstan Ədliyyə Nazirliyinin Cinayətkarlığın qarşısının alınması, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların icrası və probasiya üzrə Milli Agentliyinin təsis edilməsinin yubileyi münasibətilə Tbilisi şəhərində keçirilmiş "Cinayətkarlığın qarşısının alınmasında kompleks yanaşma" adlı beynəlxalq konfransda iştirak edib.**





Avropa Probasiya Konfederasiyasının (CEP), Gürcüstan, Niderland, Rumıniya, Xorvatiya, Çexiya ədliyyə nazirliklərinin probasiya qurumlarının rəhbərləri və ekspertlərinin, həmçinin Gürcüstanın digər hüquq mühafizə orqanlarının, hökumət, eləcə də parlament və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirak etdiyi konfransın keçirilməsində əsas məqsəd cinayətlərin qarşısının alınması və probasiya sahəsində qurumlararası əməkdaşlığı gücləndirmək, bu sahədə mütəxəssislərin peşəkar inkişafına kömək etmək, mövcud xidmətlər və resurslar haqqında məlumat mübadiləsini asanlaşdırmaqdır.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Gürcüstanın ədliyyə nazirinin müavini və Probasiya xidmətinin rəhbərliyi arasında görüş keçirilib. Görüşdə iki ölkə arasında probasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, əməkdaşlığın genişləndirilməsi eləcə də, təcrübə mübadiləsinin həyata keçirilməsi istiqamətində razılıq əldə edilib.

Nümayəndə heyəti tədbir çərçivəsində bir sıra Avropa ölkələrinin probasiya qurumlarının rəhbərləri ilə də görüşüb, bu ölkələrlə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibində Ədliyyə nazirinin müşaviri Elvin Hətəmzadə, Probasiya xidmətinin rəisi Vüqar Ağayev, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədr müavini Faiq Ağayev və Agentliyin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Ləman Babayeva iştirak edib.

*Cəza-icra sahəsində fəaliyyət*

# İcranın alternativ mexanizmləri ilə bağlı beynəlxalq təcrübə öyrənilir









**Məhkəmə və digər orqanların qərarlarının icrası prosesinin yaxşılaşdırılması, icranın alternativ mexanizmləri barədə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Ədliyyə Nazirliyinin nümayəndə heyəti qarışıq icra modelinin tətbiq olunduğu Qazaxıstan Respublikasında səfərdə olub.**

Səfər zamanı Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyində və Özəl İcra Məmurlarının Palatasında görüşlər keçirilib. Görüşlərdə nümayəndə heyətinə Qazaxıstan Respublikasında dövlət və özəl icra institutlarının fəaliyyəti, özəl icra təsisatının qurulmasının xüsusiyyətləri, bu sistemin tətbiqindən ötən müddət ərzində qazanılmış nailiyyətlər barədə ətraflı məlumat verilib və özəl sistemə keçid zamanı əldə olunmuş təcrübələr bölüşülüb.

Həmçinin, icra orqanlarının avtomatlaşdırılmış informasiya sistemi və özəl icra məmurlarının təlim mərkəzinin fəaliyyəti ilə bağlı təqdimatlar nümayiş etdirilib və heyət üzvlərinin sualları cavablandırılıb.

Nümayəndə heyəti özəl icra məmurlarının ofislərinə baş çəkib, qərarların real icrası prosesi, ofislərdə işin təşkili, işçi heyət arasında vəzifə bölgüsü və fəaliyyətin elektronlaşdırılması ilə əyani şəkildə tanış olub.

**Məhkəmə və digər orqanların qərarlarının icrasında alternativ mexanizmlərin tətbiqinə dair beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində Ədliyyə Nazirliyi tərəfindən silsilə tədbirlər həyata keçirilir.**

Qeyd olunan tədbirlər çərçivəsində Ədliyyə Nazirliyinin nümayəndə heyəti Gürcüstana səfər edib. Səfər çərçivəsində Gürcüstanın Ədliyyə Nazirliyinin Milli İcra Bürosunda görüş keçirilib. Görüşdə Gürcüstanın icra sistemi, onun strukturu, publik və özəl icra sisteminin spesifik cəhətləri, Milli İcra Bürosunun ölkə üzrə qərarlarının icrasını təmin edən regional büroları, habelə özəl icra məmuru ofislərinin fəaliyyəti barədə ətraflı məlumat verilib, icra sahəsində rəqəmsal idarəetmə, əldə olunmuş nailiyyətlər, tətbiq olunan innovativ alətlər, bu sahədə gələcək planlar barədə təqdimatlar nümayiş etdirilib.

Nümayəndə heyəti Tbilisi icra bürosu və özəl icra məmuru ofisinə də baş çəkib, həmin strukturlarda işin təşkili, qərarların icrasının xüsusiyyətləri ilə yerində tanış olub, istifadə olunan resurslar barədə məlumat əldə edib.

Həmçinin, bu sahədə elmi-praktiki biliklərin, qiymətləndirici mülahizələrin alınması məqsədilə Rusiya Federasiyasının elm xadimi, hüquq elmləri doktoru, professor Vladimir Yarkov ilə Ədliyyə Nazirliyində görüş keçirilib. Görüşdə "Özəl icra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirə olunub, layihə üzrə bir sıra konseptual məsələlər ekspertin tövsiyələri ilə yenidən nəzərdən keçirilib.

*Ədliyyə Akademiyası xəbərləri*

ƏDLİYYƏ AKADEMİYASI

# Ədliyyə Akademiyasında

**Cari ilin iyul ayında Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən ədliyyə və məhkəmə aparatı işçiləri, hakimlər, prokurorlar, vəkillər, mediatorlar, bələdiyyə üzv və qulluqçuları üçün müxtəlif aktual mövzularda təlim və ixtisasartırma kursları keçirilib.**

Akademiyada hakimlər üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi həyata və ailə həyatına hörmət hüququ), 13-cü maddəsi (Səmərəli hüquqi müdafiə vasitələri hüququ) və 14-cü maddəsi (Ayrı-seçkiliyin qadağan olunması)" mövzusunda ixtisasartırma kursu keçirilib. 43 nəfər hakimin iştirak etdiyi kursda şəxsi həyata və ailə həyatına hörmət hüququna müdaxilənin yolverilməzliyi,



Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadənin təmin olunma xüsusiyyəti, hüquq və azadlıqları pozulan hər kəsin dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə mexanizmləri və s. barədə mövzular tədris olunub.

Növbəti kurs "Məhkəmə psixologiyasının aktual məsələləri" mövzusuna həsr olunub.

33 nəfər hakimin cəlb edildiyi təlimdə məhkəmə psixoloji ekspertizasının əsas istiqamətləri, məhkəmə prosesi iştirakçıları ilə ünsiyyətin psixoloji xüsusiyyətləri, stressin psixologiyası və idarə olunması, hakimlərin emosional tükənmə məsələləri və s. barədə məsələlər dinləyicilərin diqqətinə çatdırılıb.

Ədliyyə Akademiyası həmçinin, prokurorluq orqanlarının əməkdaşları üçün "Ədalət mühakiməsi prosesində yetkinlik yaşına çatmayanlarla davranış qaydaları" mövzusunda ixtisasartırma kursu keçirib.

10 nəferin iştirak etdiyi kursda yetkinlik yaşına çatmayanlarla davranış qaydaları, hüquqi prosedurlar zamanı cinayətdən zərərçəkmiş, cinayətin şahidi olmuş, cinayət və hüquq pozuntusu törətmiş uşaqların hüquqlarının və qanuni maraqlarının təmin edilməsi, uşaqlarla müsahibə aparılması, onların dindirilməsi, uşaqların və onların ailələrinin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi və s. barədə məsələlərə toxunulub.



Bundan əlavə, Akademiyada "Mediatorların ilkin hazırlıq kursu"nu müvəffəqiyyətlə bitirmiş mediatorlara sertifikatlar təqdim olunub. Mərasimdə Mediasiya Şurası İdarə Heyətinin üzvü Əli Nəbiyev və Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfov iştirak ediblər.

Çıxışlarda bildirilib ki, 2024-cü ildə daha sıx qurulan əməkdaşlıqlar daha keyfiyyət yönümlü nəticələrə nail olmağa imkan yaradıb. Natiqlər mediasiya sahəsində təşkil edilən təlimlərdən danışıb, mediatorlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "CBC Media" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.05.2012-ci il
**Qeydiyyat №-si:** 1112-Q40-3050
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Musayev Mirsahib Saleh oğlu olmuşdur
**Dəyişiklik:** 01.07.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial və İqtisadi Rifaha Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.12.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q57-3454
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev Mehman Tariyel oğlu olmuşdur
**Dəyişiklik:** 02.07.2024-cü il tarixdə qeydə alınıb

### "LAYF" xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.07.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q59-3505
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbasbəyli Əminə Kamandar qızı olmuşdur
**Dəyişiklik:** 02.07.2024-cü il tarixdə qeydə alınıb

### "Vərəmsiz gələcəyə doğru" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.07.2020-ci il
**Qeydiyyat №-si:** 1120-Q73-3843
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ramazanlı Çingiz Sabir oğlu olmuşdur
**Dəyişiklik:** 02.07.2024-cü il tarixdə qeydə alınıb

### "Abadlıq-Sosial İnkişafa Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q48-3243
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Cavadov Toğrul Seyran oğlu olmuşdur
**Dəyişiklik:** 03.07.2024-cü il tarixdə qeydə alınıb

### Azərbaycan Uşaq Fondu

**Qeydiyyat tarixi:** 27.12.1991-ci il
**Qeydiyyat №-si:** 117
Fondun Himayəçilər şurasının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Bədəlbəyli Zəhra Vaqif qızı olmuşdur
**Dəyişiklik:** 03.07.2024-cü il tarixdə qeydə alınıb

### "Azərbaycan Demokratik Tələbə GənclərTəşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.07.1995-ci il
**Qeydiyyat №-si:** 736
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsgərli Asif Məmməd oğlu olmuşdur
**Dəyişiklik:** 03.07.2024-cü il tarixdə qeydə alınıb

### "El pəhləvanları idman klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.04.2020-ci il
**Qeydiyyat №-si:** 1120-Q72-3817
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Nurəddin İldırım oğlu olmuşdur
**Dəyişiklik:** 03.07.2024-cü il tarixdə qeydə alınıb

### "İnternyus-Azərbaycan" ictimai birliyi

**Qeydiyyat tarixi:** 08.05.2002-ci il
**Qeydiyyat №-si:** 1381
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Səfərov İlham Yünis oğlu olmuşdur
**Dəyişiklik:** 04.07.2024-cü il tarixdə qeydə alınıb

### "Həmrəy" maarifləndirmə ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.04.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q44-3159
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əliyev Əlirza Əsəd oğlu olmuşdur
**Dəyişiklik:** 04.07.2024-cü il tarixdə qeydə alınıb

### "Quba Regional Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q32-2872
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Xeyrullayev Eynulla Niftulla oğlu olmuşdur
**Dəyişiklik:** 05.07.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial Dayaq" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat №-si:** 1110-Q32-2865
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Niftəliyeva Qərənfil Ağababa qızı olmuşdur
**Dəyişiklik:** 05.07.2024-cü il tarixdə qeydə alınıb

### "Braziliya Ciu-Citsu Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2012-ci il
**Qeydiyyat №-si:** 1112-Q42-3092
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Taleh Məmməd oğlu olmuşdur
**Dəyişiklik:** 05.07.2024-cü il tarixdə qeydə alınıb

### "Əlilliyi Olan Şəxslərin Sosial Müdafiəsinə və İnteqrasiyasına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.01.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q58-3469
Birliyin ümumi yığıncağının prtokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Kərimova Səbinə Aqil qızı olmuşdur
**Dəyişiklik:** 08.07.2024-cü il tarixdə qeydə alınıb

### "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.08.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q55-3395
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdulova Cəmilə Çingiz qızı olmuşdur
**Dəyişiklik:** 08.07.2024-cü il tarixdə qeydə alınıb

### "Yasamal-7" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 15.04.2016-cı il
**Qeydiyyat №-si:** 1116-MM3-0024
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Miratayev Əhməd Mir Əli oğlu olmuşdur
**Dəyişiklik:** 08.07.2024-cü il tarixdə qeydə alınıb

### "Tərəqqi" sosial tədqiqatlar ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q18-2385
Birliyin ümumi protokolu və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Sabirabad şəhəri, Heydər Əliyev prospekti, ev 2C, mənzil 12, hazırki məqsədi: vətəndaş cəmiyyətinin inkişafına, vətəndaş cəmiyyətinin sosial, əhalinin sağlamlığının qorunmasına dair məsələlərinin həllində iştirakçılığı, rolunu və töhfəsini genişləndirməyə kömək etmək, qanuni təmsilçisi Əmənov Calal Tofiq oğlu olmuşdur
**Dəyişiklik:** 11.07.2024-cü il tarixdə qeydə alınıb

### "İdrak" Mötədillik prinsipi üzrə Azərbaycan Beynəlxalq İslam Konqresi ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q13-2220
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Rüfət Nizami oğlu olmuşdur
**Dəyişiklik:** 12.07.2024-cü il tarixdə qeydə alınıb

### "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" ictimai birliyi

Qeydiyyat tarix i: 29.04.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q54-3380
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Nüşabə Ələsgər qızı olmuşdur
**Dəyişiklik:** 12.07.2024-cü il tarixdə qeydə alınıb

### "İctimai Maraqlar Naminə Vətəndaş Təşəbbüsü" ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q18-2375
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Vüqar Ziya oğlu olmuşdur
**Dəyişiklik:** 12.07.2024-cü il tarixdə qeydə alınıb

### "Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q12-2144
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Mustafayev Əsabəli Qurban oğlu olmuşdur
**Dəyişiklik:** 12.07.2024-cü il tarixdə qeydə alınıb

### "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı

**Qeydiyyat tarixi:** 29.11.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q38-3003
Himayəçilər şurasının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Məsiyev Vüsal Hamlet oğlu olmuşdur
**Dəyişiklik:** 12.07.2024-cü il tarixdə qeydə alınıb

### "Dirçəliş İqtisadi Araşdırmalar Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.03.2000-ci il
**Qeydiyyat №-si:** 1270
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadıqov Vasib Mürşüd oğlu olmuşdur
**Dəyişiklik:** 15.07.2024-cü il tarixdə qeydə alınıb

### "Avropanın gənc Azərbaycanlı dostları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.04.1998-ci il
**Qeydiyyat №-si:** 1034
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Qocazadə Pərvin Zakir oğlu olmuşdur
**Dəyişiklik:** 15.07.2024-cü il tarixdə qeydə alınıb

### "İCOMOS Azərbaycan" ictimai birliyi

**Qeydiyyat tarixi:** 17.01.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q79-4004
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Allahverdiyeva Şeyda İlqar qızı olmuşdur
**Dəyişiklik:** 15.07.2024-cü il tarixdə qeydə alınıb

### "Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q17-2336
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Əli-zadə Tofiq Məhərrəm oğlu olmuşdur
**Dəyişiklik:** 16.07.2024-cü il tarixdə qeydə alınıb

### "Sosial adaptasiyanın inkişafına yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.12.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q57-3456
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi, 1157-ci məhəllə, ev 17B, mənzil 27; Yeni qaydalarla: AZ 1025, Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi, giriş 55, M8, m3, qanuni təmsilçisi Qurbanov Şahid Sucayət oğlu olmuşdur
**Dəyişiklik:** 16.07.2024-cü il tarixdə qeydə alınıb

### İctimai Televiziya və RadioYayımları Şirkəti

**Qeydiyyat tarixi:** 16.05.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1732
Yayım şurasının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımov Balakişi Ələkbər oğlu olmuşdur
**Dəyişiklik:** 16.07.2024-cü il tarixdə qeydə alınıb

### Azərbaycan Respublikası İctimai "Səhhət" Fondu

**Qeydiyyat tarixi:** 03.08.1994-cü il
**Qeydiyyat №-si:** 593
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki adı: "Səhhət" Sağlamlığa Dəstək ictimai birliyi, hazırki məqsədi: əhalinin sağlamlığının qorunmasına kömək etmək, qanuni təmsilçisi Həsənov Taryel Humay oğlu olmuşdur
**Dəyişiklik:** 17.07.2024-cü il tarixdə qeydə alınıb

### "Qızılbaş" Gəncləri Maarifləndirmə ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1786
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbaslı Natəvan Şakir qızı olmuşdur
**Dəyişiklik:** 17.07.2024-cü il tarixdə qeydə alınıb

### "Bacarıqlı Əllər Dünyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 20.08.2009-cu il
**Qeydiyyat №-si:** 1109-Q28-2768
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Azadə Paşa qızı olmuşdur
**Dəyişiklik:** 17.07.2024-cü il tarixdə qeydə alınıb

**"Abşeron" gənclərin inkişafı ictimai birliyi**

**Qeydiyyat tarixi:** 23.04.2009-cu il
**Qeydiyyat №-si:** 1109-Q27-2718
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi İsgəndərov Ayaz Oqtay oğlu olmuşdur
**Dəyişiklik:** 17.07.2024-cü il tarixdə qeydə alınıb

**"Qadınların inkişafına və maarifləndirilməsinə dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.04.2016-cı il
**Qeydiyyat №-si:** 1116-Q54-3373
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əhmədova Aygün Adil qızı olmuşdur
**Dəyişiklik:** 18.07.2024-cü il tarixdə qeydə alınıb

**"Mədəni Əlaqələrin İnkişafına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.06.2017-ci il
**Qeydiyyat №-si:** 1117-Q59-3495
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdullayeva İlahə Qismət qızı olmuşdur
**Dəyişiklik:** 19.07.2024-cü il tarixdə qeydə alınıb

**"Gələcəyə Körpü" Gənclər ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.05.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q4-1745
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Rzazadə Anaxanım İntiqam qızı olmuşdur
**Dəyişiklik:** 19.07.2024-cü il tarixdə qeydə alınıb

**"Faiq" kənd təsərrüfatı məhsulları istehsalçılarının ictimai birliyi**

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q8-2006
Birliyin ümumi yığıncağının protokolundan çıxarış və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Hacıəhməd Seyidağa oğlu olmuşdur
**Dəyişiklik:** 19.07.2024-cü il tarixdə qeydə alınıb

**"Yurd" gənclərin intellektual inkişafına dəstək ictimai birliyi**

**Qeydiyyat tarixi:** 20.06.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q45-3184
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mahmudov Ramin Sadıq oğlu olmuşdur
**Dəyişiklik:** 19.07.2024-cü il tarixdə qeydə alınıb

**"Yaradıcı Təşəbbüslər" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q23-2580
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Tariyel Aydın oğlu olmuşdur
**Dəyişiklik:** 19.07.2024-cü il tarixdə qeydə alınıb

**"Ailələrə Dayaq" xeyriyyə ictimai birliyi**

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q18-2374
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Natəvan Əsgər Əli qızı olmuşdur
**Dəyişiklik:** 22.07.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 11.11.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q3-1628
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Süleymanov Elxan Sirac oğlu olmuşdur
**Dəyişiklik:** 22.07.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan Revmatoloqlar" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.06.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q80-4063
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Musayev Sahib Kazım oğlu olmuşdur
**Dəyişiklik:** 22.07.2024-cü il tarixdə qeydə alınıb

**"Nəsimi-40" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 21.06.2022-ci il
**Qeydiyyat №-si:** 1122-MM9-0245
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Heydərova Kəmalə Aydın qızı olmuşdur
**Dəyişiklik:** 23.07.2024-cü il tarixdə qeydə alınıb

**"Qadınlar Arasında Həmrəylik" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q9-2058
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynova Ruhəngiz Bəşir qızı olmuşdur
**Dəyişiklik:** 23.07.2024-cü il tarixdə qeydə alınıb

**"Neftçilər Klubu" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.08.2012-ci il
**Qeydiyyat №-si:** 1112-Q41-3088
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mustafayev Comərd Yavər oğlu olmuşdur
**Dəyişiklik:** 24.07.2024-cü il tarixdə qeydə alınıb

**"Xəzər-Gələcək Naminə Tərəfdaşlıq Beynəlxalq Hərəkatı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 07.06.2004-cü il
**Qeydiyyat №-si:** 1104-Q2-1568
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Rüstəm Fəxrəddin oğlu olmuşdur
**Dəyişiklik:** 24.07.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan Turizm Agentlikləri Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 18.03.2019-cu il
**Qeydiyyat №-si:** 1119-Q66-3679
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qəhrəmanov Göydəniz İbrahim oğlu olmuşdur.
**Dəyişiklik:** 24.07.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan Qalaqapı (Qo) Federasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat №-si:** 1107-Q16-2331
Konfransın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəfərov Qəmbər Məhərrəm oğlu olmuşdur
**Dəyişiklik:** 24.07.2024-cü il tarixdə qeydə alınıb

**"Xesed Avraam Bakı Xeyriyyə" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 12.08.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q37-2981
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İzqilov İzik Yevdayeviç olmuşdur
**Dəyişiklik:** 24.07.2024-cü il tarixdə qeydə alınıb

**"Səhiyyə və Sağlam Həyat" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 27.01.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q8-1994
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Əlizadə Cahangir Kamal oğlu olmuşdur
**Dəyişiklik:** 25.07.2024-cü il tarixdə qeydə alınıb

**"İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.11.2005-ci il
**Qeydiyyat №-si:** 1105-Q6-1937
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova Şəlalə Arif qızı olmuşdur
**Dəyişiklik:** 25.07.2024-cü il tarixdə qeydə alınıb

**"SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası ictimai birliyi**

**Qeydiyyat tarixi:** 28.09.1999-cu il
**Qeydiyyat №-si:** 1180
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi İmanova Nətavan Şahlar qızı olmuşdur
**Dəyişiklik:** 25.07.2024-cü il tarixdə qeydə alınıb

**"ProDemos" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat №-si:** 1108-Q24-2628
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Məmmədzadə Mirazər Vüqar oğlu olmuşdur
**Dəyişiklik:** 26.07.2024-cü il tarixdə qeydə alınıb

**"Addım" yaradıcı gənclər assosiasiyası ictimai birliyi**

**Qeydiyyat tarixi:** 20.06.2013-cü il
**Qeydiyyat №-si:** 1113-Q45-3183
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cavadzadə Hüseyn Ədalət oğlu olmuşdur
**Dəyişiklik:** 26.07.2024-cü il tarixdə qeydə alınıb

**"Təməl" Qadın və Uşaqların İnkişafına Dəstək ictimai birliyi**

**Qeydiyyat tarixi:** 18.05.2002-ci il
**Qeydiyyat №-si:** 1122-Q80-4058
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Osmanlı Şəbnəm Əli qızı olmuşdur
**Dəyişiklik:** 26.07.2024-cü il tarixdə qeydə alınıb

**"Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 12.08.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q37-2974
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbasov Elvin Miribadət oğlu olmuşdur
**Dəyişiklik:** 29.07.2024-cü il tarixdə qeydə alınıb

**"Diaspor Könüllüləri" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 19.04.2022-ci il
**Qeydiyyat №-si:** 1122-Q79-4023
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimov Bəxtiyar Fikrət oğlu olmuşdur
**Dəyişiklik:** 29.07.2024-cü il tarixdə qeydə alınıb

**"Bilik və Maarifçiliyin İnkişafı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.01.2011-ci il
**Qeydiyyat №-si:** 1111-Q35-2926
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Xəlilov Mehman Sədrəddin oğlu olmuşdur
**Dəyişiklik:** 30.07.2024-cü il tarixdə qeydə alınıb

**"Müasir Gənclik və Sosial İnkişaf" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat №-si:** 1106-Q10-2086
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsədov Etibar Məhəmməd oğlu olmuşdur
**Dəyişiklik:** 30.07.2024-cü il tarixdə qeydə alınıb

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40
Faks: 498-59-31

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769